UOT nömrə:342.9

# İNZİBATİ MÜBAHİSƏLƏRİN TƏSNİFATI

**N.Ə.BAXŞİYEVA**
***Bakı Dövlət Universiteti***
***n.r.007@rambler.ru***

*Məqalədə inzibati mübahisələrin müxtəlif əsaslara görə təsnifatı aparılmaqla onun növləri təhlil edilir. İnzibati mübahisənin əsas iki növü -inzibati orqanın qanuna uyğun olmayan aktı nəticəsində yaranan inzibati mübahisələr və inzibati orqanın hüquqazidd, qanunsuz hərəkəti və ya hərəkətsizliyi nəticəsində yaranan inzibati mübahisələr növləri fərqləndirilməklə onların mahiyyəti izah edilir. Müəllif hesab edir ki, Azərbaycan Respublikasının İPM-də inzibati hüquqi mübahisənin anlayışı və predmeti müəyyənləşdirilməlidir.*

**Açar sözlər:** inzibati akt, inzibati mübahisə, inzibati orqan, növ, subyektiv, səlahiyyət

Təsnifat dedikdə ənənəvi olaraq təzahürlərin ümumi əlamətlərə müvafiq olaraq siniflər üzrə bölgüsü başa düşülür. Sinif isə, ümumi əlamətlərə malik olan təzahürlərin məcmusudur. Bu təzahürlərin bölgüsü isə mühüm əhəmiyyət kəsb edən müxtəlif əlamətlərə əsasən aparılır ki, bu cür əlamətlər elmi ədəbiyyatlarda əsasən “meyarlar” adlandırılır. Təbii ki, heç də bütün meyarlar deyil, yalnız mühüm əhəmiyyət kəsb edən meyarlar təsnifatın əsası kimi qiymətləndirilə bilər. Bəzi müəlliflər məhz bu səbəbdən haqlı olaraq ümumiləşdirici termin olan “meyar”ın əvəzinə “təsnifatın əsasları” terminindən istifadə etməyi məqsədəuyğun hesab edirlər (15, 13). İnzibati hüquqi mübahisələrin təsnifatı maddi-hüquqi və prosessual xarakterə malik olan kompleks hüquq münasibətlərinin xüsusi növləri kimi çıxış edir. Təsnifat meyarlarının müəyyənləşdirilməsi həm elmi, həm də təcrübi baxımdan vacibdir. Belə ki, inzibati mübahisələrin həlli qaydalarının, prossual müdafiə vasitələrinin, aidiyyat qaydalarının müəyyənləşdirilməsində növ meyarları mühüm əhəmiyyət kəsb edir. Hüquq ədəbiyyatlarında inzibati mübahisələrin vahid təsnifat sistemi mövcud deyildir. Təsnifat mübahisənin subyekt tərkibi, predmetinin məzmunu, tərəflər arasındakı əlaqənin xarakteri, mübahisəli maddi hüquq münasibətinin iqtisadi və ya qeyri-iqtisadi məzmuna malik olması və s. kimi çoxsaylı əsaslara əsasən aparılır.

İnzibati hüquq nəzəriyəsində predmetinə görə inzibati mübahisənin iki əsas növü fərqləndirilir:

1. Obyektiv inzibati hüquq barədə mübahisələr, yəni predmetini yalnız inzibati aktların qanuniliyi təşkil edən mübahisələr.
2. İnzibati orqanın səlahiyyət həddini aşması.

İnzibati mübahisənin birinci növü olan inzibati aktların qanuniliyi təşkil edən mübahisələrlə bağlı qeyd etmək lazımdır ki, hegemon dövlətdən demokratik dövlətə keçidlə əlaqədar müasir dövrdə inzibati aktların məzmunu dəyişikliyə uğramışdır.

"İnzibati icraat haqqında" 21 oktyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanununda inzibati aktın anlayışı və növləri müəyyən olunmuşdur. Həmin Qanunun 2.0.2-ci maddəsinə əsasən inzibati akt - inzibati orqan tərəfindən ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbiridir (5, 3).

Qeyd olunan Qanunda konkret icraatın təşkili və həyata keçirilməsi ilə bağlı inzibati orqan tərəfindən qəbul edilən akt – "aralıq inzibati akt" (2.0.9-cu maddə), maraqlı şəxsə hüquq verən və ya onun hüququnu təsdiq edən, yaxud onun üzərinə qoyulmuş vəzifəni (vəzifələri) götürən akt – "əlverişli inzibati akt" (2.0.10-cu maddə), maraqlı şəxsi hüquqdan məhrum edən və ya onun hüququnu məhdudlaşdıran, yaxud onun üzərinə müəyyən vəzifə (vəzifələr) qoyan akt isə "əlverişsiz (yükləyici) inzibati akt" (2.0.11-ci maddə) kimi müəyyən olunmuşdur.

İnzibati hüququn subyektləri arasında fikir ayrılığı yalnız tənzimləyici inzibati hüquq münasibətlərindəki hüquq və vəzifələr barədə deyil, həm də normativ aktların üstün hüquqi qüvvəyə malik normativ aktlara uyğunluğu barədə məsələlərdən yarana bilər. Bu zaman tərəflər arasındakı fikir ayrılığı əsas etibarilə pozitiv hüquqa dair məsələlərə aid olur və obyektiv hüquq haqqında mübahisənin məzmununu təşkil edir. A.F.Yeftixiyev belə mübahisələri "obyektiv qanunçuluq barədə" mübahisələr adlandırır (13, 313).

Obyektiv inzibati hüquq barədə mübahisələr inzibati orqanların bu və ya digər aktının qanuniliyinin qiymətləndirilməsindən yaranır. Onların xüsusiyyətlərindən birini məhz qanunla qorunan maraqlara müdaxilə olunması təşkil edir. Belə mübahisələrdə predmet kimi müstəsna olaraq obyektiv hüquq xarakterli məsələ, yəni mübahisələndirilən aktın qanuniliyinin qiymətləndirilməsi çıxış edir. Beləliklə, mübahisələndirilən aktın özü obyektiv mübahisənin predmeti olur.

V.M.Juykov obyektiv mübahisələrin baxılması üsulunu "birbaşa mübahisələndirmə" və ya "xalis mübahisələndirmə" adlandırır (14, 116). Qeyd edək ki, ayrı-ayrı xarici ölkələrin inzibati hüququnda obyektiv hüquq haqqında mübahisə yalnız normativ xarakterli aktlara deyil, həm də administrasiyasının fərdi aktlarına şamil olunur. Buna daha çox fransız inzibati ədliyyə sistemində rast gəlinir. Onlar ilk növbədə hakimiyyət səlahiyyətlərinin aşılması ilə bağlı verilən şikayətlərdir. Hakimiyyət səlahiyyətlərinin aşılmasından verilən iddia

ərizələri fransız sistemində administrasiyaya qarşı yox, konkret hüquqi akta qarşı istiqamətlənən protest kimi qiymətləndirilir. Hesab olunur ki, bu cür hallarda mübahisəli hüquq münasibətləri yox, hüquqi səlahiyyətlərin aşılması ilə əlaqədar irəli sürülən obyektiv iddia mövcud olur (10, 456-457).

İnzibati mübahisənin ikinci növü kimi subyektiv inzibati hüquq barədə mübahisələr, yəni predmetini ümumi hüquq münasibətlərinin iştirakçılarının subyektiv hüquq, vəzifə və qanunla qorunan maraqları təşkil edən mübahisələr cıxış edir.

Hüquqi dövlətdə insanın subyektiv hüquqlarının müdafiəsini təmin edən institutlar mühüm rol oynayır. Subyektiv hüquqlar bir tərəfdən dövlətin sosial rolunun gücləndirilməsinə, digər tərəfdən isə vətəndaşların şəxsi maraqlarını təmin etməklə ümumi hakimiyyətin məhdudlaşdırılmasına yönəlir. Buna görə də, ümumi hüquqların realizəsinin təminat tədbirləri mühüm əhəmiyyət daşıyır. Belə təminatlardan biri də inzibati orqanların hərəkətlərinin, aktlarının inzibati məhkəmələrdə mübahisələndirilməsidir.

Subyektiv inzibati hüquq barədə mübahisənin spesifik xüsusiyyəti ondan ibarətdir ki, onun predmetinə inzibati orqanın aktının və ya hərəkətinin qanuna-uyğunluğu barədə məsələnin daxil edilməsi həmişə mütləq şərt deyildir. Aktın (hərəkətin) qanuniliyinə dair məsələ yalnız o halda mübahisənin predmeti olur ki, hansısa aktın qəbulu və ya hərəkətin edilməsi ilə şəxsin subyektiv hüquq, vəzifə və ya qanuni maraqları arasında əlaqə olsun.

Yaranması əsasından asılı olaraq inzibati mübahisənin iki növünü fərqləndirmək olar:

1. İnzibati orqanın qanuna uyğun olmayan aktı nəticəsində yaranan inzibati mübahisələr.
2. Inzibati orqanın hüquqazidd, qanunsuz hərəkəti və ya hərəkətsizliyi nəticəsində yaranan inzibati mübahisələr.

İnzibati mübahisə - inzibati hüququn subyektləri arasında hüquq, vəzifə və qanunla qorunan maraqların yalnız inzibati aktlarla deyil, həm də inzibati hərəkətlərlə (hərəkətsizliklə) pozulmasından və ya onların qanuniliyinin fərqli anlaşılmasından irəli gələn və hüquqi əhəmiyyətli hərəkətlərdə ifadə olunan fikir ayrılığıdır. İnzibati aktları müvafiq inzibati orqanın adından iradə bildirmək səlahiyyəti olan şəxs qəbul edə bildiyi təqdirdə, inzibati hərəkətləri hər hansı bir dövlət qulluqçusu edə bilər. Bu səbəbdən inzibati hərəkətlər daha geniş çeşidə malikdir. İnzibati orqan yalnız inzibati aktlarının deyil, həm də inzibati hərəkətlərinin nəticələrinə görə məsuliyyət daşımalıdır. Qüvvədə olan "İnzibati icraat haqqında" qanunda isə inzibati aktların anlayışı verildiyi halda inzibati hərəkətlərin anlayışı verilmir.

Fikrimizcə, inzibati mübahisənin mühüm əsaslarından biri kimi inzibati hərəkətlərin qanunvericilikdə anlayışının və əlamətlərinin, mübahisələndirilmə qaydasının dəqiqləşdirilməsi məqsədəuyğun olardı.

İnzibati hüquqi mübahisənin əsası dedikdə, öz hüquqi qüvvəsinə görə mübahisəli vəziyyətin müxtəlif şəraitlərini ifadə edən faktiki hallar başa

düşülür. Bu faktiki halları A.B.Zelentsov (15, 46) şərti olaraq bir neçə qrupa bölür:

1. Subyektlər arasındakı mübahisəli münasibətləri hüquqi cəhətdən xarakterizə edən faktlar;
2. Tərəfləri konkret inzibati mübahisənin iştirakçıları kimi müəyyənləşdirən legitimləşdirici faktlar;
3. Vətəndaşların hüquqlarının və qanuni maraqlarının həyata keçirilməsinə maneə yaradan və obyektiv hüquq qaydasının normal fəaliyyətinə mane olan faktlar.

Hüquq ədəbiyyatında inzibati mübahisənin yaranma əsası kimi məhkəməyə iddia ilə müraciətin olduğu göstərilir (19, 201). M.S.Aslanov isə haqlı olaraq bu fikirlə razılaşmayaraq bildirir ki, bu mübahisə vətəndaşın subyektiv hüququnun pozulduğu andan dərhal sonra meydana çıxır və "gizli" xarakter daşıyır, sonradan isə vətəndaşın "incikliyi" şikayət ideyasına çevrilir (2, 113).

Hesab edirik ki, inzibati mübahisənin yaranmasına aşağıdakılar əsas ola bilər:

1. Mübahisəli inzibati aktlar;

İnzibati akt hüquqi nəticə yaradır və bu bilavasitə hüquqi faktlarla bağlıdır. İradəvi meyardan asılı olaraq hüquqi faktlar hadisələrə və hərəkətlərə bölünür. Hərəkətlər mübahisəli hüquq münasibətinin yaranmasına səbəb ola bilən hüquqi faktlardır. Hüquqi faktlar dedikdə, hüquq normalarına uyğun olaraq müəyyən hüquqi nəticələrin baş verməsinə - hüquq münasibətlərinin yaranmasına, dəyişməsinə və xitamına səbəb olan konkret sosial hallar (hadisələr, hərəkətlər) başa düşülür.

Mübahisəli aktlar həm hərəkət, həm də hərəkətsizlik formasında təzahür edə bilər. F.S.Mehdiyev haqlı olaraq idarəetmə orqanlarının susmasından və ya hərəkətsizliyindən yaranan inzibati hüquqi aktı "örtülü rədd qərarı" kimi qiymətləndirir (6, 207). Həmçinin, M.Ə.Günday idarəetmə orqanlarının barəsində məhkəməyə şikayət verilə bilən aktlarının qəbulu, yaxud, hərəkətin edilməsi barədə edilən müraciətlə bağlı hərəkətsizliyini "üstüörtülü rədd qərarı" kimi qiymətləndirir (4, 11).

Qanunvericilik də bu mövqedən çıxış edərək inzibati orqanların hərəkətsizliyini vətəndaşların inzibati iddialarının predmeti kimi müəyyən etmişdir. İPM-də inzibati orqanın hərəkətsizliyindən müdafiəyə dair iddialar məcburetmə haqqında iddialar (İPM-in 2.2.2-ci maddəsi) və inzibati orqanların hərəkətsizliyi nəticəsində vurulmuş ziyana görə kompensasiyanın ödənilməsi tələbinə dair iddialar nəzərdə tutulmuşdur (İPM-in 2.2.-ci maddəsi).

2. İnzibati orqanın səlahiyyət həddini aşması.

Məlum olduğu kimi, ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələni nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilmiş və ünvanlandığı hüquqi və ya fiziki şəxs (şəxslər) üçün müəyyən hüquqi nəticələr yaradan qərar, sərəncam və ya digər növ hakimiyyət tədbirində iradə ifadə etmək səlahiyyəti olan qurumlar inzibati orqanlardır. Lakin bu hal onların

istənilən məsələ ilə bağlı inzibati akt qəbul etmək səlahiyyətinə malik olduğuna dəlalət etmir. Təsadüfi deyildir ki, "İnzibati icraat haqqında" Qanunda məhz inzibati icraatı həyata keçirən və müvafiq inzibati aktı qəbul etmək səlahiyyəti olan inzibati orqan inzibati icraatın iştirakçısı sayılır (5).

İnzibati hüquqda "səlahiyyət" anlayışı ictimai qayda ilə birbaşa əlaqədar anlayış olub, inzibati orqanların səlahiyyətlərinin qanun çərçivəsindən kənara çıxmamasını nəzərdə tutur. İnzibati orqan iradəsini ifadə edərkən öz səlahiyyətlərindən çıxış etməlidir. İnzibati orqanın səlahiyyəti dedikdə, onun həm baxılan məsələnin predmeti baxımından, həm də ərazi aidiyyatı baxımından səlahiyyətli olması nəzərdə tutulur.

Səlahiyyət həddinin aşılmasından irəli gələn tipik hallara vəzifə səlahiyyətlərindən sui-istifadəni, vəzifə səlahiyyətlərinin aşılmasını, digər orqanların işinə müdaxiləni, inzibati icraat qaydalarının pozulmasını, qanunsuz aktın qəbul olunmasını, vətəndaşın azadlığına qanunsuz müdaxilə olunmasını, qanunun müəyyənləşdirdiyi vəzifələrin yerinə yetirilməməsini, hərəkətsizliyi, digər inzibati orqanlara və ya onların vəzifəli şəxslərinə təsir göstərilməsini və s. aid etmək olar.

3. Diskresiyon səlahiyyətlərdən düzgün istifadə olunmaması.

Qanunla qorunan maraqlar hüquqazidd əməllərlə yanaşı diskresiyon səlahiyyətlərdən sui-istifadə nəticəsində də pozula bilər. Təsadüfi deyildir ki, hüquq ədəbiyyatında maraqların müdafiəsi diskresyon səlahiyyətlər sahəsində idarəetmənin qərəzsizliyini və obyektivliyini, onların mümkün səlahiyyət həddini aşmamasını təmin edən vasitə kimi qiymətləndirilir (11, 134).

Hüquq ədəbiyyatında mülahizə səlahiyyəti – çərçivəsi qanunvericilikdə nəzərdə tutulmuş, lakin məzmunu bəzi imkansızlıqlar səbəbindən dəqiq müəyyən edilməmiş inzibati proseduru ifadə edən səlahiyyət kimi qiymətləndirilir (6, 79).

A.O.Abdullayev inzibati mülahizəyə idarəçilik sahəsində müxtəlif işlərin hüquqi cəhətdən həlli üçün iş üzrə səmərəli qərarın qəbul edilməsi məqsədilə idarəetmənin subyektinə verilmiş məlum müstəqillik dərəcəsi kimi anlayış verir (1, 336).

Əgər inzibati orqan tərəfindən diskresion səlahiyyət əsasında qərar qəbul edilərsə məhkəmə bir qayda olaraq, iddiaçının tələbinə uyğun qərar qəbul edə bilməz (İPM-in 73.3.1-ci maddəsi). Lakin mülahizəyə əsasən fəaliyyət göstərməyi özbaşınalıqla, hüquq normasının pozulması ilə səhv salmaq olmaz. Bu səbəbdən qanunverici diskresion səlahiyyətlər əsasında qəbul edilmiş inzibati aktların yoxlanılması və ya həmin aktlar üzərində məhkəmə nəzarətinin mümkünlüyünü də təsbit etmişdir.

4. Qanunla qorunan şəxsi maraqların, həmçinin, ümumi tələbatlardan irəli gələn ictimai maraqların pozulması və s. Şəxsin ərizə ilə müraciət etməsi üçün aktın onun hüquq və maraqlarına toxunması subyektiv hüquq və vəzifələr barədə mübahisənin yaranmasına səbəb olmasa da, onların qanunvericilikdə təsbiti ümumilikdə məhkəmə icraatı üçün mühüm əhəmiyyət kəsb edir. Şəxsin

aktın qanuniliyinə dair mübahisənin həllində maraqlı olması məhkəmənin iddianı qəbul etməsinin şərti kimi müəyyənləşdirilir. A.Q.Hoyxbarq haqlı olaraq göstərir ki, iddiaçı öz iddiasının həllində maraqlı deyilsə, məhkəmə onun iddiasını qəbul etməməlidir (12, 109). Qeyd etmək istərdik ki, iddiaçının mübahisənin həllində maraqlı olması öz təbiətinə və məzmununa görə vətəndaşların hüquq və azadlıqlarına, qanuni maraqlarına toxunmayan aktların mübahisələndirilməsinə yol verilməməsinə də xidmət edir.

Demokratik cəmiyyətdə inzibati hüquqi mübahisələrin həcmi və növləri mütəmadi olaraq artır və məzmununa görə mürəkkəbləşir. İPM-də inzibati hüquqi mübahisənin leqal anlayışının verilməməsi inzibati işlərin aidiyyat meyarlarının müəyyənləşdirilməsinə öz neqativ təsirini göstərir. Aidiyyətin düzgün müəyyənləşməsi üçün predmetin dəqiq müəyyən olunması vacibdir. Aidiyyat məsələsinin düzgün müəyyənləşdirilməməsi təcrübədə həm məhkəmə orqanları, həm də iddiaçı üçün çətinliklər yaradır, vaxt itkisinə, mübahisənin həllinin uzanmasına səbəb olur. Bu məsələ ilə əlaqədar məhkəmə təcrübəsində bir sıra anlaşılmazlıqlar yaranır. Belə ki, bəzən inzibati-iqtisad məhkəməsi ərizəni qəbul edir, sonra isə işin onların səlahiyyətinə aid olmaması barədə vətəndaşa məlumat verir.

Fikrimizcə, inzibati mübahisənin anlayışı, əlamətləri, tərkib elementləri qanunvericilik səviyyəsində dəqiqləşdirilərsə, məhkəmələr arasında aidiyyat qaydaları ilə bağlı anlaşılmazlıqlara son qoyular. Hesab edirik ki, Azərbaycan Respublikasının İPM-də inzibati hüquqi mübahisənin anlayışı və predmeti müəyyənləşdirilməlidir. İnzibati mübahisənin anlayışı formalaşdırılarkən yalnız inzibati hüquq münasibətlərindən deyil, publik hüquq münasibətlərindən irəli gələn mübahisələrin də əhatə olunması məqsədəuyğun olardı. Çünki inzibati icraat qaydasında inzibati orqanların çıxardığı inzibati akt yalnız inzibati hüquq münasibətlərinə deyil, ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələləri nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilən hakimiyyət tədbiridir.

A.Ş.Gözüböyük predmetinin məzmunundan asılı olaraq inzibati mübahisələri 3 növ üzrə təsnifləşdirir:

1) inzibati aktların ləğv olunması tələbinə dair mübahisələr;
2) bir hüququn pozulmasının əvəzində müəyyən hərəkətin edilməsini və ya vurulmuş ziyanın əvəzinin ödənilməsini nəzərdə tutan mübahisələri (tam mühakimə mübahisələri);
3) hüquq normasının təfsirindən və konkret məsələyə tətbiqindən yaranan mübahisələr (3, 303).

Bu təsnifatı qəbul edən A.R.Uyanık yazır ki, ləğvetmə tələbinə dair mübahisələrin predmeti ancaq inzibati aktlar olduğu halda, tam mühakimə mübahisələrinin predmetini həm inzibati müqavilələr, həm də inzibati hərəkətlər təşkil edə bilər (7).

Müəlliflərdən S.N.Maxina isə inzibati mübahisələrin növlərini müəyyənləşdirərkən şikayət olunan aktın normativ yaxud, qeyri-normativ olmasına

əsaslanır (18, 172-173). Fikrimizcə, bu təsnifat daha çox nəzəri əhəmiyyət kəsb edir, aidiyyat qaydalarının, müdafiə vasitələrinin və s. müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb etmir.

İ.L.Baçilo subyektlər arasındakı münasibətlərdə hakimiyyət-tabeçilik dərəcəsinə görə inzibati mübahisələrin subordinasiya, koordinasiya və reordinasiya kimi növlərini fərqləndirirdi (9, 178).

Qeyd etmək istərdik ki, Ukraynada nəşr olunmuş "İnzibati hüquq" dərsliyində də inzibati mübahisələrin növləri müəyyən olunur. Ədəbiyyatda tərəflərdən birinin digərinə münasibətdə sərəncam və ya nəzarət funksiyalarını həyata keçirtmək səlahiyyətinə malik olduğu münasibətlərdən yaranan mübahisələr "subordinasiya mübahisələri", dövlət hakimiyyət səlahiyyətlərinin ümumi vəzifələrin həlli üçün ictimai həyatın müəyyən sahələrinə, ümumi fəaliyyətə yönəlməsindən yaranan münasibətlərdən irəli gələn mübahisələr "koordinasiya mübahisələri", idarəetmə obyektinin idarəetmənin subyektinə müəyyən hərəkətləri etməsi üçün müraciət etmək hüququna malik olduğu münasibətlərdən yaranan mübahisələr isə "reordinasiya mübahisələri" adlandırılır (8, 68).

Y.N.Starilov inzibati mübahisələri məzmun meyarına görə təsnifləndirərək mühafizəedici və tənzimləyici mübahisələr kimi fərqləndirir (19, 387).

Beynəlxalq təcrübədə inzibati mübahisələrin məzmunundan asılı olaraq iddiaların, bəzən isə hətta məhkəmənin çıxardığı qərarların növləri fərqləndirilir. Məsələn, Yaponiya qanunvericiliyində mübahisələrin məzmunundan asılı olaraq inzibati iddiaların dörd növünün olması göstərilir: "kokoku", "todjişa", "xalq iddiası" (actions populares) və "kikan" (yəni, orqanlarla təşkilatlar arasında yaranan mübahisələr) (16, 90).

"Kokoku" və "todjişa" tərəflərin hüquqlarının və qanuni maraqlarının pozulmasından irəli gəlir və subyektiv iddiaların əsasını təşkil edir. "Xalq iddiaları" və "kikan" adlı iddialar isə obyektiv hüququn qanuni göstərişlərinin səhv icrasından yaranan mübahisələr üzrə qaldırılır və həmin göstərişlərin dəqiq icrasına dair tələblə bağlı olur.

Amerika qanunvericiliyində məhkəmə nəzarəti qaydasında çıxarılan qərarlar mübahisənin növündən asılı olaraq müxtəlif cür adlandırılır. Belə ki, "mandamus" adlı qərarı ilə məhkəmə inzibati orqanı təmsil edən vəzifəli şəxsə vətəndaşın narazı qaldığı hərəkətsizliyinə son qoymağı və qanunla nəzərdə tutulmuş vəzifəni yerinə yetirməyi əmr edir. "İndjankşn" adlı qərarla isə məhkəmə inzibati orqana və ya vəzifəli şəxsə qanunla səlahiyyətinə aid olmayan müəyyən hərəkətləri etməyi qadağan edir və ya müvafiq hərəkətlərə son qoymağı tələb edir (17, 123-125).

Çexiya qanunvericiliyində isə inzibati mübahisələrin növündən asılı olaraq inzibati məhkəmə icraatının daxilində aşağıdakı icraat növləri fərqləndirilir:

-qanunsuz inzibati aktların yoxlanılması üzrə icraat;

- hərəkətsizlikdən yaranan mübahisələr üzrə icraat;

- vətəndaşların şəxsi həyatına hüquqazidd müdaxilədən yaranan mübahisələr üzrə icraat;

- vətəndaşların şikayətləri üzrə icraat;

- seçki hüququnun realizəsindən yaranan mübahisələr üzrə icraat (16, 126).

Beləliklə, aparılmış tədqiqatlar istər qanunvericilikdə, istərsə də elmdə inzibati mübahisələrin müxtəlif meyarlara əsasən təsnifatının aparıldığı nəticəsinə gəlməyə imkan verir. Bu meyarlar hər bir ölkədə mövcud olan idarəçilik forması, siyasi rejim, hüquq düşüncəsi, hüquq mədəniyyəti, inzibati icraatın prinsipləri və s. asılı olaraq müəyyənləşdirilir.

Fikrimizcə, inzibati mübahisənin anlayışı, əlamətləri, tərkib elementləri qanunvericilik səviyyəsində dəqiqləşdirilərsə, məhkəmələr arasında aidiyyat qaydaları ilə bağlı anlaşılmazlıqlara son qoyular. Hesab edirik ki, Azərbaycan Respublikasının İPM-də inzibati hüquqi mübahisənin anlayışı və predmeti müəyyənləşdirilməlidir. İnzibati mübahisənin anlayışı formalaşdırılarkən yalnız inzibati hüquq münasibətlərindən deyil, publik hüquq münasibətlərindən irəli gələn mübahisələrin də əhatə olunması məqsədəuyğun olardı. Çünki inzibati icraat qaydasında inzibati orqanların çıxardığı inzibati akt yalnız inzibati hüquq münasibətlərinə deyil, ümumi (publik) hüquq sahəsinə aid olan müəyyən (konkret) məsələləri nizama salmaq və ya həll etmək məqsədilə qəbul edilən hakimiyyət tədbiridir.

**ƏDƏBİYYAT**


1. Abdullayev A.O. İnzibati hüquq. Dərs vəsaiti. Bakı: Qanun, 2005, 252 s.
2. Aslanov M.S. Azərbaycanda inzibati ədliyyə. Bakı, 2009, 178 s.
3. Gözübüyük A.Ş. Yönetim Hukuku. Ankara, 1989, 244 s.
4. Günday M. İdare hukuku. Ankara: İmaj Yayınçılık, 1997, 348 s.
5. "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2012, 42 s.
6. Mehdiyev F.S. İnzibati idarəetmə hüququ. Dərs vəsaiti. Bakı: İlay, 2008, 429 s.
7. Uyanık A. İdari yargıda iptal davalarının degerlendirilmesi. Mevzuat dergisi. Yıl 6, sayı 61, Ocak 2003 / http://www.mevzuatdergisi.com/
8. Административное право Украины. Учебник / Под общей ред. С.В.Кивалова. Х.: Одиссей, 2004, 880 с.
9. Бачило И.Л. Организация советского государственного управления. Правовые проблемы. М.: Наука, 1984, 237 с.
10. Брэбан Г. Французское административное право / Под ред. С.В.Боботова. М.: Прогресс, 1988, 488 с.
11. Гнейст Р. Правовое государство и административные суды Германии / Под ред. М.И.Свешников. СПб.: Тип. В. Безобразова и Ко, 1896, 380 с.
12. Гойхбарг А.Г. Курс гражданского процесса. Л., 1928, 317 с.
13. Евтихиев А.Ф. Основы советского административного права. Харьков: Юрид. изд-во НКЮ УССР, 1925, 336 с.
14. Жуйков В.М. Проблемы гражданского процессуального права. М.: Городец, 2001, 288 с.
15. Зеленцов А.Б. Теоретические основы правового спора. Автореф. дис. ... д.ю.н. М., 2005, 42 с.
16. Козырин А.Н. Административное право зарубежных стран. Учебное пособие. М.: Спарк, 1996, 229 с.
17. Лафитский В.И. Административная юстиция в США // ЖРП, 1997, № 7, с. 123-125

18. Махина С.Н. Административный процесс: проблемы теории, перспективы правового регулирования. Воронеж: Воронеж: ВГУ, 1999, 232 с.
19. Старилов Ю.Н. Административное право. В 2 ч. Ч. 1. История. Наука. Предмет. Нормы. Воронеж: Воронеж. Ун-т, 1998, 397 с.

## КЛАССИФИКАЦИЯ АДМИНИСТРАТИВНЫХ СПОРОВ

**Н.А.БАХШИЕВА**

### РЕЗЮМЕ

В статье с помощью различных административных споров анализируется основы классификации его видов. В зависимости от образования различают два вида административных споров: споры в соответствии с незаконными актами административных органов в результате противоправных действий, бездействия или незаконные действия административных органов. Автор считает, что в АПК-се должно определиться административное правовое понятие и предмет спора.

**Ключевые слова:** административный акт, административный спор, административный орган, тип, субъективный, полномочия

## CLASSIFICATION OF ADMINISTRATIVE DISPUTES

**N.A.BAKHSHIYEVA**

### SUMMARY

The article, by means of various administrative disputes, analyzes the bases of classification of the types of disputes. Types of administrative disputes are distinguished depending on the education: disputes according to illegal acts of administrative bodies and as a result of illegal actions, inaction or illegal actions of administrative bodies. The author considers that ALC has to define administrative legal concept and the subject of the dispute.

**Key words:** administrative act, administrative dispute, administrative body, type, subjective, powers